# "Qəbələ Arxeologiyası" mövzusunda beynəlxalq elmi seminar

***Oktyabrın 21-də SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu və Koreya Respublikasının Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə "Qəbələ Arxeologiyası" mövzusunda beynəlxalq elmi seminar keçirilib.***

***Qəbələ Arxeoloji Mərkəzində təşkil olunan seminar iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr olunub.***

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin iştirak etdiyi beynəlxalq elmi seminarın açılış mərasimində Koreya Respublikasının Azərbaycandakı səfiri Kim Çanq-gyu, SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri Ruhəngiz Heydərova, Azərbaycanın mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədov, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru Maisə Rəhimova, akademik Teymur Bünyadov, Qəbələ arxeoloji ekspedisiyasının rəisi, AMEA-nın müxbir üzvü İlyas Babayev, Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı və digərləri çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Koreya Respublikası və Azərbaycan Respublikası qarşılıqlı əməkdaşlıq istiqamətində ötən 25 ildə siyasi, iqtisadi, mədəni sahələrdə böyük irəliləyişə nail olub. Eləcə də hər iki ölkə arasında yaradılan dostluq münasibətlərinin genişlənməsində artıq 12 ildir fəaliyyət göstərən Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai Birliyinin böyük rolu olduğu qeyd olunub.

Çıxış edənlər ölkələrimiz arasında elm sahəsində əməkdaşlığın nümunəsi kimi Qəbələ Azərbaycan-Koreya arxeoloji ekspedisiyasının fəaliyyətini xüsusi vurğulayıblar. Qeyd olunub ki, son illər dünyanın mədəniyyət və turizm mərkəzinə çevrilən Qəbələnin bu cür beynəlxalq elmi seminara ev sahibliyi etməsi beynəlxalq aləmin diqqətini bir daha yalnız Qəbələyə deyil, bütövlükdə Azərbaycana cəlb edir.





Beynəlxalq seminarda Azərbaycan-Koreya arxeoloji ekspedisiyasının SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşəbbüsü, maliyyə və təşkilati dəstəyi ilə fəaliyyətə başladığı diqqətə çatdırılıb. O vaxtdan etibarən Qafqaz Albaniyası dövlətinin paytaxtı, sonralar isə Azərbaycan və Şərqin tarixində əhəmiyyətli şəhər olmuş Qəbələnin (e.ə.IV - b.e. XVIII əsrlər) üç tarixi - Paleolit, Eneolit və Erkən Tunc dövrlərinə aid şəhərkənarı ərazilərində hər il arxeoloji tədqiqatların aparıldığı vurğulanıb.





Tədbirdə Qəbələdəki arxeoloji tədqiqatların AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları və Koreyanın bir neçə elmi mərkəzinin mütəxəssislərindən ibarət komanda tərəfindən aparıldığı bildirilib. Qazıntılar zamanı tapılan ən maraqlı maddi-mədəniyyət nümunələrinin saxlanılması və mütəxəssislər tərəfindən laboratoriya işlərinin aparılması üçün məqsədilə Çuxur Qəbələ kəndindəki Arxeoloji Mərkəzin sərgi salonuna təhvil verildiyi qeyd olunub.

Beynəlxalq tədbir zamanı elmi məruzələrlə yanaşı, 2005-ci ildən SEBA Assosiasiyasının təşəbbüsü, maliyyə dəstəyi və təşkilatçılığı ilə 2500 illik tarixə malik və 900 il Qafqaz Albaniyasının paytaxtı olan qədim Qəbələ şəhəri ərazisində AMEA-nın müxbir üzvü, professor İlyas Babayevin rəhbərliyi altında Azərbaycan və Koreya arxeoloqlarının birgə apardığı arxeoloji ekspedisiyalar zamanı əldə olunan nəticələr barədə illik hesabatlar və tapıntılara dair kitablar toplusunun, eləcə də SEBA Assosiasiyasının sifarişinə əsasən Bakı Media Mərkəzi tərəfindən çəkilmiş "Qəbələ-Qafqaz Albaniyasının paytaxtı" filminin təqdimatı keçirilib.

Elmi müşavirədə seminar materiallarının toplusunda 39 müəllifin 33 elmi əsərinin nəşr olunduğu deyilib. Tədbirdə Azərbaycan arxeoloqları ilə yanaşı, Koreyanın Seul Milli Universitetinin, Kongju Milli Universitetinin, Şilla Mədəni İrsi üzrə Tədqiqat İnstitutunun, M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin və Almaniya Arxeoloji İnstitutunun İstanbul filialının professorları və Koreyanın Qəbələ ilə qardaşlaşmış Qyonqcu şəhər meriyasının mədəni irs şöbəsinin əməkdaşı Lee Joo Younq da iştirak edib.

Seminarda Azərbaycan və Koreyanın tanınmış arxeoloqları qədim Qəbələ şəhərinin ərazisində apardıqları tədqiqatların nəticələri barədə məlumat veriblər.

Beynəlxalq elmi seminarın iştirakçıları qədim Qəbələ şəhərinin Antik, Səlbir və Qala adlanan ərazilərində aparılan arxeoloji qazıntı işləri, eləcə də eksponatlar və fotoşəkillərdən ibarət sərgi ilə tanış olublar.

**Varis YAQUBOV,**
**«Qəbələ»**
**Fotolar İlkin Vəlizadənindir.**

## *Yeni Azərbaycan Partiyasının yaranmasının 25-ci ildönümüdür*

# Sabitlik və inkişaf partiyası

**(Əvvəli 2-ci səhifədə).**

Təşkilatlanmağa başladığı günlərdən AXC - Müsavat hakimiyyətinin kəskin təzyiqlərinə və təqiblərinə məruz qalsa da partiyanın fəalları öz yollarından dönməmiş, hər gün daha çox insan Heydər Əliyev ideyaları ətrafında bu partiyada birləşmişdilər. Yarandığı ilk aylardan təşkilat rayonun və ölkənin ictimai-siyasi həyatında fəal mövqe tutmuşdur. Rayon təşkilatı ötən illər ərzində siyasi partiya kimi üzərinə düşən vəzifələrin öhdəsindən şərəflə gəlmişdir. Bu illər ərzində ölkədə keçirilən Prezident, Milli Məclis, bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının rayon təşkilatı fəal iştirak etmişdir. Rayonumuzdakı seçki dairələrində Prezident və Milli Məclisə seçkilərdə, bütün hallarda Yeni Azərbaycan Partiyasının namizədləri qalib gəlmiş, bələdiyyə seçkilərində partiyanın namizədləri səslərin mütləq çoxluğunu (80-85) faiz əldə etmişlər.

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı bu gün 76 ərazi ilk təşkilatında 6330 nəfər partiya üzvünü birləşdirir ki, onların 2593 nəfəri (41 faiz) qadınlar, 2405 nəfəri (38 faiz) gənclərdir.

Rayonda ictimai-siyasi sabitliyin qorunmasında da rayon təşkilatının böyük rolu var. Burada yaşayan xalqların, etnik qrupların arasında bir-birinə qarşılıqlı inam və hörmət hissinin artırılmasına çalışmaq YAP rayon təşkilatının əsas vəzifələrindəndir.

Yeni Azərbaycan Partiyası rayon təşkilatı müntəzəm olaraq yaşayış məntəqələrində milli azlıqlar arasında iş aparır, onların kompakt halda yaşadıqları yerlərdə görüşlər keçirir, problemlərin həlli ilə yaxından məşğul olur. Respublikamızda 2016-cı ilin «Multikulturalizm ili» elan olması ilə əlaqədar «Multikulturalizmin Azərbaycan modeli: dünyanın mükəmməl nümunəsi» mövzusunda konfrans keçirilmiş və kitab sərgisi təşkil olunmuşdur. Rayonumuzda son illərdə milli azlıqların yaşadıqları Qəmərvan kəndində və Nic qəsəbəsində evlərin qazlaşdırması işləri başa çatdırılmış yollar təmir edilmiş, körpülər tikilmişdir. Görülmüş işlər sayəsində rayonda milli mənsubiyyətinə görə ayrı seçkilik hallarına yol verilmir. Partiya sıralarına qəbul sahəsində də rayonda yaşayan bütün xalqlar və etnik qruplar nəzərə alınır.

Bu gün iqtidarda olan Yeni Azərbaycan Partiyasının bütün fəaliyyəti ölkəmizin siyasi və iqtisadi cəhətdən yüksəlməsinə, xalqın rifah halının yaxşılaşmasına yönəlmişdir.

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı rayonumuzun gündən-günə inkişaf etməsində, çiçəklənməsində və şöhrət qazanmasında ön sırada gedir. Rayonun elə bir sahəsi yoxdur ki, Yeni Azərbaycan Partiyasının üzvləri orada olmasın və fəallıq göstərməsin.

**Abil AĞASƏFOV,**
**Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri.**